# TƏLƏBƏLƏRİN ELMİ-TƏDQİQATÇILIQ QABİLİYYƏTLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİNİN ƏSAS PEDAQOJİ ŞƏRTLƏRİ



**Səbinə Cəfərova,**
*Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının müəllimi*
*e-mail: cafarova.sabina.elchin@bsu.edu.az*
*https://doi.org/10.30546/2706-7858.2025.3.1005*

**UOT:** 37, 378

**Xülasə**. *Məqalədə tələbələrin elmi-tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsinin əsas pedaqoji şərtləri təhlil edilərək ümumiləşdirmə aparılmışdır. Belə qənaətə gəlinmişdir ki, pedaqoji şərtlərin sistemli tətbiqi tələbələrin elmi-tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirməklə onların gələcək peşə fəaliyyətində uğur qazanmalarına kömək edəcəkdir. Tələbələrin elmi-tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi bir çox pedaqoji şərtlərin qarşılıqlı əlaqəsindən asılıdır. Müasir tədris mühitində interaktiv təlimlər müəllimlərin dəstəyi, resursların mövcudluğu və məqsədli qiymətləndirmə tələbələrin elmi-tədqiqat qabiliyyətlərini inkişaf etdirə bilər.*

***Açar sözlər:*** *tələbə, müəllim, ali təhsil müəssisəsi, elmi-tədqiqatçılıq qabiliyyəti, inkişaf, yaradıcılıq.*
***Key words:*** *student, teacher, higher education institution, scientific research ability, development, creativity.*
***Ключевые слова:*** *студент, преподаватель, высшии учебное заведении (вуз), научно-исследовательская способность, развитие, творчество.*

Tələbələrin elmi-tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi ali təhsil müəssisələri qarşısında duran mühüm vəzifələrdən biridir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərilir ki, səriştəli müəllim kadrlarının hazırlığında tələbələrin tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə diqqət artırılmalı və təhsilin bütün mərhələlərində yeni kurikulumların hazırlanması və yeni pedaqoji texnikalardan istifadə irəli sürülməlidir [1].

Tələbələrin tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi ali məktəbdə təlim və tərbiyənin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərir. Tələbələrin tədqiqatçılıq qabiliyyəti və məsələyə yaradıcı münasibəti onun biliklərə marağını təmin edir, təlim məşğələlərinə məsuliyyətlə yanaşır, müstəqil olaraq yeni biliklər qazanır və nəhayət, intellektual səviyyə – ziyalılıq səviyyəsi yüksəlir. Tələbələrin elmi-tədqiqatçılıq qabiliyyətlərinin inkişafı təhsil sistemində mühüm bir yer tutur. Bu, yalnız tələbənin şəxsi inkişafına deyil, həm də cəmiyyətin elmi-texniki tərəqqisinə böyük töhfələr verir. Elmi-tədqiqatçıların yetişdirilməsi üçün, ilk növbədə, tədris proqramlarının düzgün qurulması, təcrübəli müəllim və mentorların dəstəyi, praktik təcrübənin təmin

edilməsi, fikir mübadiləsi və əməkdaşlıq mühitinin yaradılması mühüm rol oynayır. Bu şərtlər tələbələrin müstəqil, yaradıcı və analitik düşünən elmi-tədqiqatçılar kimi yetişməsinə şərait yaradır.

Elmi-tədqiqatçılıq qabiliyyətlərinin inkişafı üçün tələbələrin yaradıcı düşünmə qabiliyyətlərinin stimullaşdırılması vacibdir. Tələbələrin elmi araşdırma mövzularına dair müxtəlif fikirlər irəli sürmələri və bu fikirləri digər tələbələr və müəllimlərlə müzakirə etmələri onların təfəkkürünü genişləndirir. Bu proses, həmçinin tələbələrin elmə olan marağını artırır və onları daha dərindən öyrənməyə təşviq edir. Məsələn, müasir elmi-konfranslar, seminarlar və elmi layihələr tələbələrə bu mövzularda daha çox fikir mübadiləsi etməyə və öz tədqiqatları ilə bağlı rəylər almağa imkan yaradır. Bu fəaliyyətlər tələbələrin elmi yanaşmalarını təkmilləşdirir və onlara müxtəlif nəzəriyyələri və metodları nəzərdən keçirtmək imkanı verir.

Elmi-tədqiqatçılıq qabiliyyəti tələbənin elmi problemləri müəyyənləşdirmək, müvafiq tədqiqat metodlarını seçmək və tətbiq etmək, məlumatları toplamaq, təhlil etmək və nəticələr çıxartmaq bacarığıdır. Bu qabiliyyətlərin inkişafı tələbələrin tənqidi və analitik düşünmə bacarıqlarını gücləndirir, onları müstəqil araşdırmalar aparmağa və yaradıcı yanaşmaya sövq edir. Bunun üçün bir sıra pedaqoji şərtlər mövcuddur:

**1. Elmi-tədqiqat mühiti və motivasiya.** Universitetlərdə elmi-tədqiqat mühitinin yaradılması tələbələrin araşdırmalara marağını artırır. Elmi-tədqiqat mühiti elmi araşdırmaların aparılması üçün yaradılan şərait və infrastrukturun məcmusudur. Bu mühit tədqiqatçıların effektiv işləməsi, yeni biliklərin əldə edilməsi və mövcud biliklərin genişləndirilməsi üçün zəruridir. Universitetlərdə tələbələr maarifləndirici elmi seminarlarda, müzakirələr və konfranslarda iştirak edir. Belə tədbirlərdə iştirak etmək onların tədqiqatçılıq ruhunu gücləndirir. Ali təhsil müəssisələrində elmi-tədqiqatla məşğul olan tələbələrə mükafatlandırma və qiymətləndirmə mexanizmləri tətbiq olunmalıdır (məsələn, elmi məqalə yazan tələbələrin xüsusi sertifikat və ya akademik üstünlüklərlə dəyərləndirilməsi) [2, s.76].

Tələbələlərin elmi fəaliyyətə cəlb olunmasında Tələbə Elmi cəmiyyətlərinin də böyük rolu vardır. Bu cəmiyyətlər vasitəsilə tələbələr elmi metodları öyrənir və tədqiqatçılıq fəaliyyətinə istiqamətlənirlər. Tələbə Elmi cəmiyyətləri tələbələrin müxtəlif elmi sahələrdə araşdırmalar aparmasına və yeni biliklər əldə etmələrinə dəstək olur və kreativ düşüncə və innovativ yanaşmalarını stimullaşdırır. Eyni zamanda bu cəmiyyətlər vasitəsilə tələbələr elmi layihələrdə iştirak edə, seminarlar və konfranslarda öz tədqiqatlarını təqdim edə bilərlər. Bu cəmiyyətlər həm də gənc tədqiqatçılara qeyri-adi və yenilikçi həllər təklif etməyə imkan verərək onların elmi və texnoloji inkişafını təşviq edir.

Elmi fəaliyyətlərdə iştirak etmək tələbələrə tədqiqatçı və ya akademik sahədə gələcək karyera qurmağa da kömək edir. Belə ki, elmi cəmiyyətlər tələbələrin akademik bacarıqlarını inkişaf etdirərək onların iş dünyasına inteqrasiyasını asanlaşdırır. Tələbələr iş dünyasına inteqrasiya edərək müəyyən bilik və bacarıq əldə edir. Bu da onların gələcəkdə öz işlərini qurmaqlarında böyük rol oynayır. Onlar, həmçinin tələbələrə elmi məqalələrin yazılması, müzakirələr aparılması və təqdimat bacarıqlarını inkişaf etdirməsində dəstək olur. Tələbə Elmi cəmiyyətləri tələbələrin özlərini daha çox elmi işlərə həsr etmələri üçün bir mühit təmin edir. Belə mühitlər tələbələrə öz bilik və bacarıqlarını test etmək, problemləri həll etmək və yeni biliklər əldə etmək üçün güclü motivasiya yaradır. Bu, həm də tələbələrin özünəinamını artırır [4, s.13].

**2. Müasir pedaqoji texnologiyaların tətbiqi.** Müasir pedaqoji texnologiyalar təlim və tərbiyə prosesinin səmərəliliyini artırmaq məqsədi ilə tətbiq edilən yenilikçi metod və vasitələrin məcmusudur. Problemyönümlü tədris, layihə-əsaslı öyrənmə və tədqiqatyönümlü yanaşmalar tələbələrin elmi düşüncə qabiliyyətini inkişaf etdirir. Bu texnologiyalar təhsilalanların motivasiyasını yüksəltmək, onların təlim-idraki fəallığını artırmaq və təlim prosesini optimallaşdırmaq üçün nəzərdə tutulur. Müəllim hazır bilik verməkdənsə, tələbəni yaradıcı düşünməyə, araşdırma aparmağa sövq etməlidir. Tələbələr rəqəmsal texnologiyalardan istifadə etməklə informasiya axtarışı və analiz qabiliyyətlərini formalaşdırırlar. Bir sözlə, müasir pedaqoji texnolo-

giyalar təhsil prosesinin effektivliyini artırmaqla yanaşı, təhsilalanların şəxsiyyət kimi formalaşmasına və onların cəmiyyətə faydalı vətəndaş kimi yetişməsinə töhfə verir [2, s.219].

**3. Elmi rəhbərlik və mentorluq.** Tələbələrin elmi-tədqiqatçılıq qabiliyyətlərinin inkişafı prosesində təcrübəli müəllimlərin və mentorların rolu böyükdür. Mentorluq hər hansı bir sahədə təcrübəli şəxsin (mentor) daha az təcrübəli şəxsə (menti) peşəkar və ya şəxsi inkişafında dəstək verməsi prosesidir. Bu prosesdə mentor öz bilik və təcrübəsini paylaşaraq mentinin hədəflərinə çatmasına kömək edir. Bu baxımdan təcrübəli müəllimlər və elmi rəhbərlər tələbələrə dəstək verməli, onların tədqiqat metodlarını mənimsəməsinə kömək etməlidirlər. Elmi-tədqiqat fəaliyyəti tələbə üçün bir çox çətinlik və mürəkkəbliklər yarada bilər. Məhz buna görə də müəllimlər və mentorlar tədqiqatçı rolunu oynayaraq tələbələrin doğru istiqamətdə irəliləməsinə kömək etməlidirlər. Onlar tələbələrə tədqiqatın metodologiyasını, məlumat toplama və analizetmə üsullarını öyrətməklə yanaşı həm də onlara müstəqil düşünməyi, nəticələrə əsaslanaraq mülahizələr irəli sürməyi və elmi etikaya riayət etməyi də öyrədirlər. Mentorlar tələbələrin şəxsi inkişafına diqqət yetirərək, onların tədqiqat prosesinə aid olan hər bir mərhələdə düzgün qərarlar qəbul etmələrinə dəstək olurlar. Bu cür rəhbərlik tələbənin özünü daha güvənli hiss etməsinə və elmi işini daha səmərəli şəkildə aparmasına imkan verir. Tələbələr elmi məqalələr yazmağa və araşdırmalar aparmağa təşviq olunmalıdırlar.

**4. Praktiki tədqiqat imkanlarının yaradılması.** Elmi-tədqiqatçı olmaq yalnız nəzəri biliklərlə kifayətlənmək deyil, həm də praktiki təcrübə əldə etməyi tələb edir. Tələbələrin elmi-tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirmək üçün müvafiq tədqiqat laboratoriyalarının və elmi-tədqiqat müəssisələrinin mövcudluğu mühüm əhəmiyyət kəsb edir. Tələbələrə bu laboratoriyalarda işləmək imkanı verildikdə, onlar real tədqiqat problemləri ilə qarşılaşır və nəzəri biliklərini praktiki şəkildə tətbiqetmə bacarığını qazanırlar. Tələbələrə real problemləri araşdırmalarına şərait yaradılmalıdır. Belə problemlərdən biri təhsil və pedaqoji araşdırmalardır. Təhsil və pedaqoji araşdırmalar təhsilin keyfiyyətinin artırılması, yeni tədris yanaşmalarının inkişafı və müəllim-tələbə qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsi məqsədi ilə həyata keçirilir. Bu baxımdan universitet-sənaye əməkdaşlığı qurulmalı, tələbələrin elmi layihələrdə iştirakı təmin olunmalıdır. Təcrübə keçmək, tədqiqat materialları üzərində işləmək və elmi eksperimentlər aparmaq tələbələrin analitik düşünmə qabiliyyətlərini artırır və onları müstəqil şəkildə araşdırmalar aparmağa təşviq edir. Praktiki təcrübə, həmçinin tələbələrin elmi fəaliyyətlərində qarşılaşdıqları çətinlikləri aşmalarına kömək edir və onları daha da gücləndirir.

**5. Akademik yazı bacarıqlarının inkişaf etdirilməsi.** Tələbələrə akademik məqalə yazılması, elmi mənbələrlə işləmək və analitik təhlillərin necə aparılması öyrədilməlidir. Bu bacarıq elmi məqalə, esse, dissertasiya və digər akademik sənədlərin yazılmasında vacibdir. Akademik yazının bir sıra xüsusiyyətləri vardır:

- ***Aydınlıq və dəqiqlik.*** *Fikirlər açıq və anlaşılan şəkildə ifadə olunmalıdır. Qeyri-müəyyən və ya dolaşıq ifadələrdən çəkinmək lazımdır.*
- ***Məntiqi quruluş.*** *Yazı hissələrə (giriş, əsas hissə, nəticə) düzgün bölünməli, ideyalar məntiqi ardıcıllıqla təqdim olunmalıdır.*
- ***Elmi üslub və obyektivlik.*** *Subyektiv fikirlərdən və gündəlik danışıq üslubundan çəkinərək neytral və elmi dildə yazmaq vacibdir.*
- ***Tənqidi yanaşma.*** *Mövzu ilə bağlı fərqli fikirlər araşdırılmalı, müqayisə edilməli və sübutlarla əsaslandırılmış nəticələr çıxarılmalıdır.*
- ***İstinad və mənbələrdən istifadə.*** *Akademik yazılar etibarlı mənbələrə əsaslanmalıdır.*
- ***Qrammatik və orfoqrafik düzgünlük.*** *Dil qaydalarına riayət olunmalı və yazı səhvlərindən qaçınmalıdır.*

Tədqiqatçılıq yalnız fərdi fəaliyyət deyil, həm də kollektiv əməkdaşlıq tələb edən bir sahədir. Tələbələrin elmi-tədqiqatçılıq qabiliyyətlərinin inkişafı üçün qrup işləri və əməkdaşlığın təşviq edilməsi vacibdir. Qrup şəklində həyata keçirilən tədqiqatlar tələbələrin öz aralarında təcrübə və ideya mübadiləsi etmələrinə imkan verir. Qrup işləri, eyni zamanda tələbələrin liderlik, əməkdaşlıq, mübahisə və nəticəçıxarma bacarıqlarını inkişaf etdirir. Tələbələrin bir-birindən öyrən-

məsi, müxtəlif yanaşmaları müzakirə etməsi və ortaq nəticəyə gəlməsi onların tədqiqatçı olaraq inkişaflarına böyük töhfə verir.

**Nəticə.** Nəticə etibarilə, tələbələrin elmi-tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi bir çox pedaqoji şərtlərin qarşılıqlı əlaqəsindən asılıdır. Müasir tədris mühitində interaktiv təlimlər, müəllimlərin dəstəyi, resursların mövcudluğu və məqsədli qiymətləndirmə tələbələrin elmi-tədqiqat qabiliyyətlərini inkişaf etdirə bilər. Bu baxımdan sadalanan pedaqoji şərtlərin sistemli tətbiqi tələbələrin elmi-tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirməklə onların gələcək peşə fəaliyyətində uğur qazanmalarına kömək edəcək və onların elmi-tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirəcəkdir.

## İstifadə edilmiş ədəbiyyat


1. Ali təhsil müəssisəsində təhsilalanların elmi-tədqiqat işinin təşkili haqqında Əsasnamə (Azərbaycan Respublikası Təhsil nazirinin 27 iyun 2014-cü il tarixli, 752 nömrəli əmri ilə təsdiq edilmişdir). “Xalq qəzeti” 28 iyun 2014.
2. Qasımova L., Mahmudova R. Pedaqogika (dərslik). Bakı, “Ekoprint” nəşriyyatı, 2021.
3. Qasımov R. Tələbələrin elmi-tədqiqat bacarıqlarının inkişafı. Bakı, 2017.
4. Hüseynzadə R., Əzizova Z. Pedaqogika (dərslik). Bakı, “Mütərcim” nəşriyyatı, 2021.
5. Məhərrəmov E. Təhsil müəssisələrində elmi-tədqiqat prosesinin təşkili. Bakı, “Gənclik” nəşriyyatı, 2020.
6. Pəhlivanlı İ. Tədqiqatçılıq bacarıqlarının inkişafı: təhsil və pedaqogika. Bakı, 2012.


**S.Jafarova**

## The main pedagogical conditions for developing students’ scientific research skills


**Abstract**

The article analyzes the main pedagogical conditions for developing students’ scientific research skills and provides a general overview. It concludes that the systematic application of these conditions will help students improve their research abilities and achieve success in their future professional careers. The development of students' scientific research skills depends on the interaction of various pedagogical conditions. In the modern educational environment, interactive teaching methods, teacher support, the availability of resources, and purposeful assessment can enhance students' research abilities.


**С.Джафарова**

## Основные педагогические условия развития научно-исследовательских навыков студентов


**Аннотация**

В статье проанализированы и обобщены основные педагогические условия развития научно-исследовательских способностей студентов. Сделан вывод, что системное применение этих условий способствует развитию их исследовательских навыков и поможет добиться успеха в будущей профессиональной деятельности. Развитие научно-исследовательских навыков студентов зависит от взаимодействия различных педагогических условий. В современной образовательной среде интерактивные методы обучения, поддержка преподавателей, наличие ресурсов и целенаправленная оценка могут способствовать развитию исследовательских способностей студентов.